

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 aprel 2022-ci il №25 (2636) https://mod.gov.az Qiymәti 30 qəpik

## Prezident İlham Əliyev Böyük Britaniyanın silahlı qüvvələr nazirini qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Böyük Britaniyanın silahlı qüvvələr naziri, Böyük Britaniya parlamentinin üzvü Ceyms Hippini qəbul edib.*

AZƏRTAC xəbər verir ki, görüşdə bu il Azərbaycanla Böyük Britaniya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğu məmnunluqla vurğulandı və bu dövr ərzində ölkələrimiz arasında müxtəlif sahələrdə səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirildi. Bu münasibətlə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Boris Consonun Prezident İlham Əliyevə və dövlətimizin başçısının Boris Consona ünvanlanmış təbrik məktublarının əhəmiyyəti qeyd edildi.

Bildirildi ki, 30 illik dövrdə uğurlu əməkdaşlığın həyata keçirilməsi əlaqələrimizin bundan sonra da genişlənməsi üçün yaxşı zəmin yaradır.

Görüşdə neft, qaz, Azərbaycan iqtisadiyyatına Böyük Britaniya tərəfindən sərmayə qoyuluşu, ticarət, nəqliyyat, müdafiə sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.



Söhbət zamanı NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli dəstək" missiyasında Azərbaycanın iştirakı qeyd edildi.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllindən sonra bölgədə post-münaqişə dövründə gedən proseslər barədə danışdı.

## XİN: Ermənistan tərəfindən üçtərəfli Bəyanatın müddəalarının pozulması bölgədə sülh quruculuğu səylərinə xələl gətirir

*Ermənistan Təhlükəsizlik Şurasının 2022-ci il 28 mart tarixli bəyanatı ilə əlaqədar bildirmək istərdik ki, bölgədə gərginliyin artmasının birbaşa səbəbi Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsidir. Məhz Ermənistan tərəfindən üçtərəfli Bəyanatın müddəalarının pozulması bölgədə gərginliyi artırır və sülh quruculuğu səylərinə xələl gətirir.*

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan Təhlükəsizlik Şurasının bəyanatına dair şərhində yer alıb.

"Beynəlxalq çəkindirmə mexanizmlərinin işə salınması məsələsi ilə əlaqədar Ermənistan rəhbərliyinin diqqətinə çatdırmaq istərdik ki, bəşəriyyət, hələlik beynəlxalq hüquqdan başqa daha yaxşı beynəlxalq çəkindirmə vasitəsi düşünməyib. Ermənistan kimi bir dövlət bir tərəfdən beynəlxalq hüququ kobud şəkildə pozub, digər tərəfdən beynəlxalq çəkindirmə mexanizmindən danışa bilməz. Əgər Ermənistan Təhlükəsizlik Şurasının üzvləri ən yaxşı beynəlxalq çəkindirmə vasitəsinin nə olduğunu hələ də bilmirlərsə, o zaman biz beynəlxalq hüququn fundamental prinsiplərini, o cümlədən, dövlətlərin suverenliyi və beynəlxalq sərhədlərinə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq, beynəlxalq öhdəliklərinə riayət etmək kimi prinsipləri bir daha onlar üçün təkrar edirik, - deyə açıqlamada bildirilib.

Azərbaycan XİN bir daha xatırladıb: "İki ölkə arasında hərtərəfli sülh sazişi üzrə danışıqlara başlamaq məsələsinə gəldikdə, xatırlatmaq istərdik ki, ilk olaraq Azərbaycan tərəfi hələ bir il bundan əvvəl Ermənistanla sülh sazişinin imzalanması təklifini ən yüksək səviyyədə irəli sürüb və bir ay öncə sazişin əsaslanmalı olduğu konkret prinsipləri səsləndirib. Əgər Ermənistan tərəfi sülh sazişi məsələsini növbəti ictimai məlumatlandırma aksiyası kimi deyil, ciddi addım kimi nəzərdən keçirirsə, o zaman konkret addımlara keçməyin zamanıdır. Bir daha qeyd etmək istərdik ki, Azərbaycan öz tərəfindən buna hazırdır".

## “Azərbaycan Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfə verir”

*Martın 30-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının silahlı qüvvələr naziri, Böyük Britaniya parlamentinin üzvü Ceyms Hippi ilə görüşüb.*

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Böyük Britaniya ilə Azərbaycan arasında həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edilib. Eyni zamanda, iki ölkə arasında siyasi, iqtisadi, ticarət, energetika, investisiya, enerji, işğaldan azad edilmiş ərazilərimizin bərpası üzrə əməkdaşlıq məsələləri, o cümlədən alternativ enerji mənbələri və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Ölkələrimiz arasında iqtisadi sahədə əldə olunan nailiyyətlərin məmnunluq doğurduğu qeyd edilib və Birləşmiş Krallığın Azərbaycanda ən böyük birbaşa xarici sərmayədar olduğu vurğulanıb.

Bu il Azərbaycan ilə Böyük Britaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu bildirən nazir Ceyhun Bayramov ölkəmizin Krallıqla əlaqələrə önəm verdiyini, ikitərəfli münasibətlərin müxtəlif sahələrdə dinamik şəkildə inkişaf etdiyini vurğulayıb.

Söhbət zamanı regional təhlükəsizlik məsələləri də müzakirə olunub.

Nazir Ceyhun Bayramov postmünaqişə mərhələsində azad edilmiş ərazilərdə mövcud olan vəziyyətdən danışaraq, 44 günlük Vətən müharibəsi nəticəsində imzalanmış birgə bəyanatların icrası ilə bağlı məsələlər, azad olunmuş ərazilərdə üzləşdiyimiz mina təhlükəsi və onunla aparılan mübarizə barədə qarşı tərəfə ətraflı məlumat verib. O, hazırkı mərhələdə işğal amilinin aradan qaldırılması ilə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması imkanlarından, azad edilmiş ərazilərdə həyata keçirilən bərpa, yenidənqurma prosesindən danışıb. Nazir Böyük Britaniya şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsinə verdiyi töhfəni, eləcə də bu ərazilərin yenidən qurulması və bərpası işlərində iştirakının ölkəmiz tərəfindən yüksək qiymətləndirildiyini bildirib.

Ceyms Hippi Azərbaycana ilk səfəri çərçivəsində dövlətimizin başçısı ilə keçirilən görüşü məmnunluqla vurğulayıb. O, iki ölkə arasında əməkdaşlığın uğurla davam etdiyini bildirib. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə əhəmiyyətli töhfə verdiyi qeyd olunub.

Görüşdə tərəflər Ukraynadakı vəziyyət, habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycan ilə Böyük Britaniya arasında müdafiə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub

*Martın 30-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Böyük Britaniyanın silahlı qüvvələr naziri, Böyük Britaniya parlamentinin üzvü Ceyms Hippinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqları salamlayan müdafiə naziri ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin daim diqqət mərkəzində olduğunu qeyd edib.

General-polkovnik Zakir Həsənov Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qazanılan qələbədən sonra azad edilən ərazilərdə görülən işlər, eyni zamanda, Qarabağ iqtisadi zonasında və Azərbaycan-Ermənistan dövlət sərhədindəki vəziyyətlə bağlı ətraflı məlumat verib.

Həmçinin nazir Birləşmiş Krallığın BMT-nin İnkişaf Proqramı çərçivəsində Azərbaycanda ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənərək zərərsizləşdirilməsi məqsədilə göstərdiyi dəstəyinə görə təşəkkürünü bildirib.

Cənab Ceyms Hippi öz növbəsində ölkələrimiz arasında qarşılıqlı səfər və görüşlərin ikitərəfli əlaqələrin genişlənməsi üçün mühüm əhəmiyyət kəsb etdiyini deyib.

Sonda hərbi sahədə əməkdaşlığın perspektivləri və digər mövzular ilə bağlı fikir mübadiləsi aparılıb.

## Ombudsman Aparatının nümayəndələri HDQ-də olublar





Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı arasında 2022-ci il üçün birgə tədbirlər planına əsasən, Ombudsman Aparatının nümayəndələri Hərbi Dəniz Qüvvələrinin (HDQ) "N" hərbi hissəsini ziyarət ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqlar hərbi hissədə şəxsi heyət üçün yaradılan sosial-məişət şəraiti ilə tanış olub, gəmilər, matros yataqxanası, yeməkxana, tibb məntəqəsi, qərargah binası və digər obyektlərə baş çəkiblər.

Daha sonra şəxsi heyətlə görüşən Ombudsman Aparatının nümayəndələri insan hüquqları, o cümlədən hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı mühazirələr oxuyaraq şəxsi heyəti maraqlandıran sualları cavablandırıblar.

## Ombudsman: Ermənistan müharibə cinayətlərini törətdiyinə görə beynəlxalq hüquqi məsuliyyətə cəlb olunmalıdır

*Bu günlərdə Azərbaycan Respublikasının Xocalı rayonunun Fərrux kəndi ərazisində Azərbaycan Ordusunun hərbçiləri tərəfindən aparılan müvafiq qazıntılar zamanı insan nəşlərinin qalıqları aşkar olunub. Birinci Qarabağ müharibəsində Fərrux yüksəkliyi və eyniadlı kənd uğrunda gedən döyüşlərdə şəhid olmuş şəxslərə aid olduğu güman edilən həmin qalıqların aşkarlanması faktı ilə bağlı hazırda müvafiq araşdırmalar və dəqiqləşdirmələr aparılır.*

Bunu AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman) Səbinə Əliyeva bildirib.

Ombudsman təəssüflə qeyd edib ki, Birinci Qarabağ müharibəsi dövründə Ermənistan tərəfindən əsir və girov götürülmüş azərbaycanlıların amansız işgəncələrə məruz qoyulmaqla qətlə yetirilməsi, daha sonra onların nəşlərinin kütləvi şəkildə basdırılması ilə bağlı çoxsaylı faktlar mövcuddur.

"Bütün bu faktlar isə beynəlxalq humanitar hüququn normalarının, o cümlədən "Müharibə qurbanlarının müdafiəsi haqqında" 1949-cu il tarixli Cenevrə konvensiyalarının, xüsusilə də "Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında" Konvensiyanın və ona dair 1977-ci il tarixli I Əlavə Protokolun müddəalarına açıq hörmətsizlikdir və beynəlxalq ictimaiyyət tərəfindən kəskin şəkildə pislənilməlidir.

Ermənistan insanların ən mühüm təbii hüquqlarından biri olan yaşamaq hüququnun kobud şəkildə pozulması ilə nəticələnən müharibə cinayətlərini törətdiyinə görə beynəlxalq hüquqi məsuliyyətə cəlb olunmalıdır", - deyə Səbinə Əliyeva vurğulayıb.

## "Ermənistanın Qarabağla bağlı razılaşmaları pozması çox acınacaqlıdır"

İtaliyanın "İrəli İtaliya" (Forza Italia) partiyasının Senatdakı siyasi qrupunun rəsmi internet səhifəsində həmin partiyanın üzvü senator Urania Papatheunun Ermənistan tərəfindən üçtərəfli Bəyanatın müddəalarının pozulmasını pisləyən və Azərbaycanı dəstəkləyən açıqlaması dərc olunub.

AZƏRTAC xəbər verir ki, Ermənistan silahlı qüvvələrinin qalıqları tərəfindən Qarabağda bir neçə gün öncə sabotaja cəhd edildiyini bildirən italiyalı senator dünyanın hazırkı dramatik vəziyyətində iki il öncə Qarabağ münaqişəsinə son qoyan üçtərəfli Bəyanatın müddəalarının Ermənistan tərəfindən pozulmasının çox acınacaqlı olduğunu qeyd edib.

Senator açıqlamasında Ermənistanın silahlı qüvvələrinin qalıqlarının və qanunsuz erməni silahlı qruplarının Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən çıxarılmasının çox vacib olduğunu da vurğulayıb.

Senatorun açıqlaması İtaliyanın aparıcı xəbər agentlikləri ("Adnkronos", "La Presse", "AGI", "Agenzia Nova", "9Colonne", "Dire", "Askanews") tərəfindən də yayımlanıb.

## Hərbi Hava Qüvvələrində təlimlər keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi 2022-ci il döyüş hazırlığı planına uyğun olaraq Hərbi Hava Qüvvələrində (HHQ) döyüş təyyarələri ilə təlim uçuşları həyata keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimdə havaya qalxma və yerə enmə, kiçik və orta hündürlüklərdə çətin pilotaj manevrləri yerinə yetirilib.

Həmçinin şərti düşmənə məxsus yerüstü hədəflərin koordinatlarının təyin edilməsi və hava kəşfiyyatının aparılması üzrə tapşırıqlar pilotlar tərəfindən müvəffəqiyyətlə icra olunub.

# 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar silsilə anım tədbirləri keçirilib



*Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı təhsil müəssisələrində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar anım tədbirləri keçirilib.*

Anım mərasimlərində əvvəlcə soyqırımı qurbanlarının, eləcə də ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirələri bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Azad olunmuş Xocalı rayonunun Fərrux kəndində və respublikamızın digər bölgələrində keçirilən tədbirlərdə çıxış edənlər ulu öndər Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Fərmanı ilə hər il martın 31-nin Azərbaycanlıların Soyqırımı Günü kimi dövlət səviyyəsində qeyd olunmasının əhəmiyyətini xüsusi vurğulayıblar. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin, eləcə də Heydər Əliyev Fondunun ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımların dəhşətlərinin dünyaya tanıdılması istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər qeyd olunub.

Anım tədbirlərində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin, rayon incəsənət nümayəndələrinin və məktəblilərin hazırladığı ədəbi-bədii kompozisiyalar, fotosərgilər, videoçarxlar nümayiş etdirilib.

Hərbi qulluqçular tərəfindən soyqırımı qurbanlarının abidələri ziyarət olunub, ictimai-siyasi hazırlıq dərslərində mövzuya dair mühazirələr oxunub.

**İsa İSMAYILOV**
**Müdafiə Nazirliyi Mətbuat Xidməti**





Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunan tədbirdə məktəbin zabit, müəllim heyəti, kursantlar və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Tədbirdə çıxış edənlər 1918-ci ilin martında mənfur ermənilər tərəfindən Azərbaycan xalqına qarşı törədilən soyqırımın tariximizin ən qanlı səhifələrindən biri olduğunu qeyd etdilər. Bildirildi ki, bu siyasətin tərkib hissəsi günahsız azərbaycanlıları xüsusi amansızlıqla qətlə yetirmək, onları öz yurdlarından didərgin salmaq olub. Vurğulandı ki, bu tarixdə ölkə daxilində və onun hüdudlarından kənarda da anım mərasimləri keçirilir və soyqırımına məruz qalan soydaşlarımızın başına gətirilən zülm, erməni millətçiləri tərəfindən aparılan etnik təmizləmə siyasəti - bir sözlə, əsl həqiqətlər beynəlxalq auditoriyanın diqqətinə çatdırılır.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin incəsənət nümayəndələri tərəfindən 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunan muğam və vətənpərvərlik mövzusunda kompozisiyalar mərasim iştirakçılarına təqdim olundu.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş "Qanla yazılmış tarix" adlı tədbir keçirildi. Mərkəzin təşkilatçılığı ilə keçirilən tədbirdə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Hərbi Dəniz Qüvvələri və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin bir qrup zabit heyəti, kursantlar, əsgərlər iştirak etdilər.

H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşı Gülxar Məmmədova geniş məruzə ilə çıxış edərək ötən əsrin əvvəllərində və sonlarında bolşevik-daşnak birləşmələrinin, erməni terror təşkilatlarının, erməni quldur dəstələrinin "böyük Ermənistan" yaratmaq xülyası ilə 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxı, Quba qəzalarında və digər bölgələrdə, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğın və qətliamların Azərbaycan tarixinin ən qanlı səhifəsi olduğunu vurğuladı. Quba rayonunda 2007-ci il aprelin əvvəllərində tikinti işləri aparılarkən aşkarlanan kütləvi məzarlığın 1918-ci il Quba soyqırımı qurbanlarına məxsus olduğundan danışan mərkəzin əməkdaşı qeyd etdi ki, XX əsrin sonlarında erməni quldur dəstələri eyni ssenari ilə Qarabağda bəşəriyyətin ən qanlı faciəsini - Xocalı soyqırımını törətdilər. "Bakıda, Qubada, Şamaxıda, Qarabağda, Xocalıda və digər bölgələrdə törədilmiş soyqırımlarda insanların əzabla qətlə yetirilməsi, onlara dəhşətli işgəncələrin verilməsi erməni faşistlərinin, erməni terror təşkilatlarının xalqımıza qarşı törətdikləri ən böyük bəşəri cinayətdir. 1998-ci il martın 26-da ulu öndər Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanda həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verildi və 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edildi".

"Qanla yazılmış tarix" adlı tədbirin bədii hissəsində H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyi, qəhrəmanlığı tərənnüm edən və şəhidlərimizin xatirəsinə həsr olunan mahnılar ifa etdilər.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

Azərbaycan Hərb Tarixi Muzeyində 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunan "Unutmadıq, unutdurmarıq!" adlı anım mərasimi keçirildi. Tədbirdə muzeyin kollektivi, orta məktəbin şagirdləri, hərbi hissələrin, veteran təşkilatlarının, şəhər muzeylərinin və digər idarə-müəssisələrin nümayəndələri iştirak etdilər.

Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "1918-ci il 31 mart soyqırımı" adlı məruzəylə çıxış etdi. Muzey rəisi bildirdi ki, tarixin müxtəlif dövrlərində erməni millətçiləri xalqımıza qarşı dəhşətli qırğınlar, talanlar və terror əməliyyatları həyata keçirmişlər. "Törədilən soyqırımı siyasətinin tarixi XIX əsrin əvvəllərindən başlayır. Həmin dövrdə xalqımıza məxsus ərazilərdə ermənilərin məskunlaşdırılması ilə azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin əsası qoyulur. 1918-ci ilin mart soyqırımları öz miqyasına və amansızlığına görə təkcə Azərbaycan tarixində deyil, ümumbəşər tarixində ən qanlı cinayətlərdən biridir. Bu terror İrəvan quberniyasında, Cənubi Azərbaycanda, Şamaxı, Quba qəzalarında və digər bölgələrdə qəddarlıqla həyata keçirilmişdir".

Muzey rəisi Ə.Qənizadə çıxışına davam edərək vurğuladı ki, ermənilərin azərbaycanlılara qarşı soyqırımları XX əsrin sonlarında bir daha təkrarlandı. "1992-ci ilin fevralında Xocalı şəhərinin sakinlərinə misli görülməyən divan tutuldu. Bu qanlı faciə yüzlərlə azərbaycanlının öldürülməsi, işgəncələrə məruz qalması, əsir alınması və şəhərin yerlə-yeksan edilməsi ilə nəticələndi".

Azərbaycan Hərb Tarixi Muzeyinin işçisi Sevər Sağman "Ermənilərin Qafqaza köçürülməsi və 1918-ci ilə qədər həyata keçirdikləri soyqırımlar" adlı məruzəylə çıxış edərək dedi: "Şimali Azərbaycanın işğal olunmuş bölgələrinə Qacar dövlətindən və Osmanlı İmperiyasından ermənilərin köçürülməsi təsadüfi deyildi. Hələ 1724-cü ildə I Pyotrun verdiyi fərmanda Azərbaycan ərazilərində ermənilərin məskunlaşdırılması nəzərdə tutulmuşdu. Ermənilərin kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarında yerləşdirilməsi prosesi gücləndikcə yerli əhalini sıxışdırmağa başladılar. Onların torpaq iddiası yerli əhali arasında narazılıqlar yaratdı. Bu ziddiyyətlər getdikcə silahlı toqquşmalara gətirib çıxardı.

Ötən illər ərzində həqiqətin üzə çıxarılması məqsədilə aparılmış tədqiqatlar nəticəsində Quba şəhərində kütləvi məzarlıq aşkarlanıb, abidə kompleksi inşa edilib. Üzə çıxmış tarixi faktlar 104 il əvvəl mart-aprel aylarında və sonrakı dövrlərdə ermənilərin törətdiyi qanlı cinayətlərin coğrafiyasının daha geniş, soyqırımı qurbanlarının sayının qat-qat çox olduğunu sübuta yetirir".



**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

# Milli Qəhrəman Murad Mirzəyevin xatirəsi anıldı



Qəhrəmanlıq tariximizə dərin iz salan hadisələrdən biri də Aprel döyüşləridir. 2016-cı ilin aprel ayı Azərbaycan Ordusunun təxribat törədən, dinc sakinləri hədəfə alan mənfur düşmən üzərində şanlı qələbəsi kimi tarixə düşdü. Heç vaxt işğalçılıq niyyətindən əl çəkməyən təcavüzkar Ermənistan ordusunun 2016-cı il aprelin əvvəllərində qoşunların təmas xəttində törətdiyi təxribata rəşadətli ordumuz layiqli cavab verərək işğal altında olan minlərlə hektara yaxın ərazimizi, o cümlədən strateji əhəmiyyətli Lələtəpə və Talış yüksəkliklərini azad etdi. Bu zirvələrin düşməndən azad edilməsi ordumuza minlərlə hektar əraziyə nəzarət etmək imkanı qazandırdı. Həmin tarix Azərbaycanın heç vaxt erməni işğalı ilə barışmayacağını və ərazi bütövlüyümüzü hərb yolu ilə təmin etməyə qadir olan güclü ordusunun olduğunu nümayiş etdirdi. Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun qüdrətini, Azərbaycan əsgərinin qələbə əzmini, Vətən sevgisini və gec-tez erməni işğalına son qoyulacağını, ədalətin bərpa olunacağını göstərdi. Müasir tariximizin şanlı səhifələrindən olan Aprel zəfəri həm də Böyük Qələbəmizin başlanğıcı oldu.

Həmin döyüşlərdə iştirak edən igid oğullarımız canı bahasına bizə Qələbə sevincini yaşatdılar. Son damla qanlarına qədər şücaətlə döyüşdülər. Düşmənə Azərbaycan əsgərinin gücünü, mübarizliyini göstərdilər. Ərazilərimizin azadlığı uğrunda vətənpərvərliyin ən ali məqamı olan şəhidlik zirvəsinə ucaldılar. Hünər və qeyrət simvolu olan şəhidlik zirvəsinə ucalan Aprel zəfərinin



qəhrəmanlarının əziz xatirəsi qədirbilən xalqımız tərəfindən daim yaşadılır. Bu gün hər bir vətəndaşımız həmin ərənlərin qəhrəmanlıqları ilə öyünür, fəxr edir.

Hər kəsin qürur duyduğu, qəhrəmanlığından ağız dolusu danışdığı igidlərimizdən biri də şəhid polkovnik-leytenant Murad Mirzəyevdir. 2016-cı ilin aprelində qoşunların təmas xəttində qarşı tərəfin törətdiyi silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı qəhrəmancasına şəhid olan Xüsusi Təyinatlı Qüvvələrin polkovnik-leytenantı Murad Telman oğlu Mirzəyev həmin döyüşlərdə xalqımızın qəhrəmanlıq tarixinə parlaq səhifələr yazan mətin döyüşçülərimizdəndir. O, 1976-cı ilin baharında Sabirabad rayonunun Muğangəncəli kəndində doğulub, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunu olub. Türkiyə Respublikası Silahlı Qüvvələrinin Quru Qoşunları Məktəbində təhsil alıb və qardaş ölkədə bir çox təlimlərdə və kurslarda iştirak edib. Azərbaycan Ordusunda motoatıcı taqım komandiri vəzifəsindən hərbi hissə komandiri vəzifəsinədək yüksələn Murad Mirzəyev ABŞ, Türkiyə, Ruminiya, İordaniya və digər ölkələrdə xüsusi kurslar keçib, dəfələrlə döyüş medalları ilə təltif olunub. 2016-cı ilin aprelində Goranboy rayonu istiqamətində erməni təxribatlarına qarşı aparılan əks-həmlə əməliyyatlarında komandiri olduğu qrupla birlikdə şücaət və igidlik göstərib, düşməni hərbi texnika və canlı qüvvə sarıdan xeyli itkilərə uğradıb, son damla qanınadək vuruşaraq




qəhrəmancasına həlak olub. Ölkəmizin ərazi bütövlüyünün qorunmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə polkovnik-leytenant Mirzəyev Murad Telman oğlu "Azərbaycanın Milli Qəhrəmanı" (ölümündən sonra) adına layiq görülüb.

II Fəxri xiyabanda Azərbaycanın Milli Qəhrəmanı polkovnik-leytenant Murad Mirzəyevin doğum günü münasibətilə keçirilən anım tədbirində əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Anım mərasiminə toplaşan Müdafiə Nazirliyinin və Yasamal rayon İcra Hakimiyyətinin nümayəndələri, qəhrəmanın ailə üzvləri və yaxınları, döyüş yoldaşları şəhidin məzarı önünə əklillər qoyaraq xatirəsini dərin ehtiramla yad etdilər.

Mərasimdə çıxış edənlər düşmən təxribatının qarşısını alaraq şəhidlik zirvəsinə yüksələn polkovnik-leytenant Murad Mirzəyevin şərəfli döyüş yolundan danışdılar. Muradın vətənpərvərliyindən, şəxsi keyfiyyətlərindən söz açdılar. Bacarıqlı, savadlı və üstün xüsusiyyətlərə malik komandir olduğunu bildirdilər. Qeyd edildi ki, Murad Mirzəyevin şücaəti, qəhrəmanlığı ilə təkcə ailəsi, doğmaları deyil, bütün Azərbaycan fəxr edir. Vətən uğrunda canından keçərək şəhid olan Murad kimi oğulların qəhrəmanlıq salnaməsinin heç zaman unudulmadığı və gələcək nəsillərə örnək göstərildiyi vurğulandı. Azərbaycanın Milli Qəhrəmanının timsalında bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa, ailə üzvlərinə səbir arzuladılar.

Şəhidin atası çıxış edərək şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirdi.

Anım mərasiminə toplaşanlar Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, Murad kimi qəhrəman oğullarımızın şərəfli döyüş yolunun tanıdılması və geniş təbliğ edilməsi üçün respublikanın bütün bölgələrində mütəmadi olaraq tədbirlərin keçirildiyini və şəhidlərin xatirəsinin dərin hörmət və ehtiramla yad edildiyini bildirdilər.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**



# Şəhid Əfqan Nəsirovun xatirəsinə həsr olunan mərasim keçirildi

*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan əsgər Əfqan Nəsirovun xatirəsinə həsr olunan anım mərasimi keçirildi.*

Tədbirdə Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi və tələbələri, şəhidin ailə üzvləri, döyüş yoldaşları, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin şəxsi heyəti iştirak etdilər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və Vətənimizin suverenliyi uğrunda şəhid olan oğullarımızın ruhu bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi general-mayor Qulu Novruzov tədbiri açaraq Allahdan bütün şəhidlərə rəhmət dilədi. "Hər bir xalqın tarixində mürəkkəb və keşməkeşli günləri olub. Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa edərək azad oldu. Ancaq müstəqilliyimiz müharibə dövrünə düşdü. Birinci Qarabağ müharibəsi hər birimizin ağrılı yeri oldu. Həmin döyüşlərdə minlərlə vətəndaşımız şəhid oldu. Onlar şəhid olsalar da, adlarını qəhrəmanlıq tariximizə böyük hərflərlə yazdılar.

Əfqan Nəsirov kimi igid döyüşçülərimizin Vətən sevgisi sayəsində 30 ilə yaxın davam edən işğala son qoyuldu, Vətən müharibəsi qələbə ilə yekunlaşdı".

Şəhidin anası Kəmalə İsmayılova dedi ki, Əfqan hər zaman Vətənə bağlı olmuşdur. O, şərəflə döyüşərək torpaqlarımızın azadlığı uğrunda canından keçdi. Belə qəhrəman oğulun anası olduğum



üçün fəxr edirəm.

Şəhidin bir vaxtlar təhsil aldığı məktəbin direktoru, şəhid anaları və Dövlət Gömrük Komitəsinin Akademiyasının tələbələri çıxış edərək Əfqan Nəsirovla bağlı xatirələrindən danışdılar.

Qəhrəmanlığı, igidliyi tərənnüm edən şeirlər səsləndirdilər.

Şəhidin anasına diplomlar təqdim olundu. Tədbirin sonunda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyə həsr olunan musiqilər səsləndirdilər.

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycanın Milli Qəhrəmanı Şükür Həmidovun anım mərasimi keçirilib





*Aprelin 1-də İkinci Şəhidlər xiyabanında Azərbaycanın Milli Qəhrəmanı, Vətən müharibəsinin şəhidi polkovnik Şükür Həmidovun doğum günü münasibətilə anım tədbiri keçirilib.*



Müdafiə Nazirliyinin bir qrup zabiti, Qubadlı rayon İcra Hakimiyyətinin və Qubadlı rayon Mədəniyyət Evinin əməkdaşları, Vətən müharibəsinin iştirakçıları, ictimaiyyət nümayəndələri, Milli Qəhrəmanın ailə üzvləri və döyüş yoldaşları onun məzarını ziyarət edib, önünə əklil və gül dəstələri qoyublar.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, anım mərasimində əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər qəhrəmanımızın şərəfli həyat yolundan, vətənpərvər zabit kimi Vətənə qüsursuz xidmətindən, xüsusilə də Aprel döyüşləri və Vətən müharibəsi zamanı göstərdiyi şücaət və igidliyindən danışıblar.

Şükür Həmidovun qəhrəmanlığının Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyi, müxtəlif orden və medallarla təltif olunduğu xüsusi vurğulanıb.

Milli Qəhrəmanın atası Nəriman Həmidov göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərin xatirələrinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.

Anım tədbiri Sumqayıt şəhərində şəhid zabitin şərəfinə inşa edilən xatirə abidəsinin və Qubadlı rayonu Azərbaycanın Milli Qəhrəmanı Şükür Həmidov adına Xanlıq kənd 3 nömrəli tam orta məktəbin ziyarət olunması ilə davam edib.

*Tarix yazan oğullar*

# Peşəsinin vurğunu olan şəhid zabit



Böyük Zəfəri Azərbaycanımıza yurd sevgili, qorxubilməz, torpaqlarımızın azadlığı uğrunda canından, qanından keçməyə hazır olan döyüşçülərimiz, Vətən övladlarımız bəxş elədilər. Haqq etdiyimiz mübarizədə Vətən övladlarımız şəhid oldular, qazi oldular. Bu döyüşlərdə canını qurban vermiş şəhidlərimiz xalqımızın mənəvi dünyasında ən yüksək məqamda qərarlaşdılar. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin söylədiyi kimi, "Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaqlar. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torpaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər. Biz bu qələbəni onlara borcluyuq. Onlar torpaqlarımızı işğalçılardan qarış-qarış azad ediblər, onlar bizim bayrağımızı azad edilmiş torpaqlarda qaldırıblar, bayrağımızı orada dalğalandırıblar".

Belə döyüşçülərimizdən biri də şəhid leytenant Rusif Yusif oğlu Kazımov idi. O, 1997-ci il martın 29-da Cəlilabad rayonunun Uzuntəpə kəndində anadan olmuşdu. Ailənin ilk oğul övladı olan Rusif şəhid Eldəniz Usubov adına Uzuntəpə 1 nömrəli tam orta məktəbdə 9-cu sinfə qədər oxuyur. O, hələ orta məktəb illərindən hərbçi olacağını qarşısına məqsəd qoyur. Valideynləri Rusifin bu seçiminə hörmətlə yanaşıb, yüksək qiymətləndirirlər, hətta qürurlanırlar da. Ona görə də Rusif intellektini, dünyagörüşünü bu sahəyə aid olan ibtidai bilgilərlə zənginləşdirməyə çalışır. Fiziki hazırlıqlarını artırır. Orta məktəbdə əla qiymətlərlə oxuyan Rusif qarşısına qoyduğu məqsədə nail olmaq üçün səy və bacarıq nümayiş etdirir. 2011-ci ildə sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə təqdim edir. Özünü gələcəyin kursantı kimi görən Rusif qürurlanır, arzusunun reallaşacağı günü səbirsizliklə gözləyirdi. Nəhayət, Hərbi liseyin kursanti olmaq arzusu gerçəkləşir. O, dərsə başladığı gündən ilkin hərbi vərdişlərə yiyələnir. Bütün dərslərə məsuliyyətlə yanaşır. Liseydə keçirilən xarici dil dərslərinə xüsusi maraq göstərirdi. Bu maraq sonralar Rusifin dörd xarici dili - ərəb, fars, rus, ingilis dillərini sərbəst bilməsinə təkan verəcəkdi.

Hərbi liseyi başa vuran əlaçı kursant Rusif Kazımov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirir. Burada hərb elminin dərinliklərinə yiyələnir, hərbi nəzəriyyəni mənimsəyir, çöl dərslərində, təlimlərdə, atışlarda bacarığı ilə fərqlənir. 2019-cu ildə kəşfiyyat ixtisası üzrə ali hərbi təhsilini başa vuran gənc zabit Rusif Kazımov "N" hərbi hissəsində xidmətə başlayır. O, keçirilən təlimlərdə döyüş bacarığını və peşəkarlığını daha da artırırdı. Təlimlər zamanı qazandığı nəzəri biliklərin təcrübədə tətbiqini mükəmməl yerinə yetirirdi. Hər bir zabit kimi Rusif də qarşısına qoyduğu hədəflərə çatmaq üçün öz üzərində çox çalışır, təlimdə tər, döyüşdə qələbə devizi ilə xidmətini davam etdirirdi…

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayan zaman leytenant Rusif Kazımov Murovdağ istiqamətində strateji əhəmiyyətli yüksəkliklərin düşməndən təmizlənməsində şücaətlər göstərir, Suqovuşan, Füzuli uğrunda gedən döyüşlərdə fəal iştirak edir. Xalqımızın 44 günlük haqq savaşında leytenant Rusif Kazımov şərəfli döyüş yolu keçərək noyabrın 5-də Laçın dəhlizi istiqamətində gedən ağır döyüşlərdə şəhidlik məqamına yüksəlir. Şəhid zabit Cəlilabad rayonunun Uzuntəpə kənd qəbiristanlığında dəfn olunur.

Rusifin şəhid olmasından 7 ay sonra oğlu dünyaya gəlir. Şəhid zabit arzulayırdı ki, oğlu olarsa, adını Nuran qoyacaq. Bu arzu, bu istəklə də şəhidin xatirəsinə körpəyə Nuranrusif adı verilir.

Nuranrusif Vətənə əmanətdir.

Leytenant Kazımov Rusif Yusif oğlu 44 günlük Vətən müharibəsində göstərdiyi igidliyə görə, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Rəşadət" ordeni, "Cəsur döyüşçü", "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medallarına layiq görülüb.



Hər bir şəhid ailəsinin yanında olmaq, onların ağrı-acılarını yaxından hiss etmək, övladları barədə xoş xatirələrini dinləyib qələmə almaq təkcə peşə borcumuz deyil, həmçinin mənəvi və vətəndaşlıq borcumuzdur.

Rusifin boya-başa çatdığı Cəlilabad rayonu Uzuntəpə kəndinin camaatı torpaqsevərliyi, vətənsevərliyi ilə tanınır. Rusif də belə bir mühitdə tərbiyə alıb böyümüşdü. Biz şəhidin ata ocağında valideynləri Yusif Kazımov və Zərifə xanımla, həyat yoldaşı Zeynəblə görüşüb, evlərində yaradılan guşəsi ilə tanış olduq. Onlar Rusiflə bağlı xatirələrindən danışdılar. Şəhidin yadigarı balaca Nuranrusif gözlərini atasının şəkillərindən ayırmırdı.

Yusif müəllim söhbətində bildirdi ki, hərbçi olmaq, Hərbi liseyə imtahan vermək Rusifin öz arzusu olub. "O ilk dəfə kursant formasını əyninə geyinəndə nə qədər sevinmişdi. Peşəsinin vurğunu idi. Rusif bizim həmişə qürurumuz, fəxrimiz olub. Vətənə əsl oğul, valideynlərinə əsl övlad idi... Bütün şəhidlər mənim övladımdır. Onlar Azərbaycanımızın bütövlüyü naminə canlarından keçiblər. Qədirbilən xalqımız hər zaman şəhid övladlarını xatırlayacaq".

Şəhid leytenant Rusif Kazımovun martın 29-da doğum günü ilə bağlı məzarı ziyarət olundu. Yaşasaydı, 25 yaşı tamam olacaqdı... Ömrünü Vətən, torpaq üçün fəda edən Rusifin xatirəsi həmişə yad olunacaq. Aylar, illər, əsrlər keçsə də, o, xalqımızın, hər birimizin, onu sevənlərin qəlbində 23 yaşlı gənc zabit kimi qalacaq.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)**

**Mövzu:** Rus İmperiyasının Qafqaz istilası. Kürəkçay, Gülüstan və Türkmənçay müqavilələri.

**Suallar:**
**1. Azərbaycanın Rusiya və İran arasında parçalanması. Kürəkçay müqaviləsi.**
**2. İşğala aparan yol. Gülüstan və Türkmənçay müqavilələri.**

### Azərbaycanın Rusiya və İran arasında parçalanması. Kürəkçay müqaviləsi

Tarixin bütün dövrlərində xalqımız müxtəlif siyasi-hərbi münaqişələrə cəlb olunmuş, nəticədə zaman-zaman əraziləri işğal olunmuş, insanları qətlə yetirilmişdir. Müharibələr nəticəsində xalqın minilliklər boyu formalaşmış mənəvi-dini-milli dəyərlərinə ziyan dəymiş, torpaqlarının bir hissəsi əldən getmiş, Cənubi Qafqaz Rusiyaya birləşdirildikdən sonra bu proses güclənmişdir.

Cənubi Qafqazın siyasi və hərbi-strateji əhəmiyyəti böyük idi. Çar Rusiyası Cənubi Qafqazı əlavə gəlir mənbəyinə, Xəzər dənizini Rusiyanın daxili dənizinə çevirməyə çalışırdı. Azərbaycanın əlverişli coğrafi mövqeyi, təbii sərvətləri, xüsusən də faydalı qazıntı yataqları artıq çar Rusiyasına məlum idi. Azərbaycanda bol olan qızıl, boya, yun, ipək, pambıq, tütün, neft çar Rusiyasını xammal və yanacaqla təmin edə bilərdi. Bu ərazilərin işğalı çar Rusiyası-Osmanlı (Türkiyə) münasibətlərində qüvvələr nisbətini çar Rusiyasının xeyrinə həll edə bilərdi. Cənubi Qafqazdakı mürəkkəb siyasi, iqtisadi və beynəlxalq vəziyyət çar Rusiyasının işğalçı planlarının həyata keçirilməsini asanlaşdırırdı.

1801-ci ilin əvvəllərində İngiltərə Qacarlar (İran) dövləti ilə siyasi və ticarət müqavilələri bağladı. Qacarlar dövləti ilə İngiltərənin yaxınlaşması çar Rusiyasının 1801-ci ilin 12 sentyabrında Şərqi Gürcüstanın (Kartli-Kaxetiya çarlığı) çar Rusiyasına birləşdirilməsi ilə nəticələndi. Şərqi Gürcüstanla birlikdə Azərbaycanın tarixi torpaqları olan Qazax, Borçalı, Şəmşəddil sultanlıqları və Pəmbək bölgəsi gürcü quberniyasının tərkibinə daxil edildi. Beləliklə, Azərbaycan torpaqlarının çar Rusiyası tərəfindən istilasının əsası qoyuldu.

Çar Rusiyası 1802-ci ildə Georgiyevsk (Şimali Qafqazda yerləşir, 1802-1822-ci illərdə Qafqaz quberniyasının mərkəzi olmuşdur) şəhərində Şimali Azərbaycan xanlarının (Quba, Dərbənd və Lənkəran) və Qafqazın digər hakimlərinin nümayəndələri ilə "Georgiyevsk" müqaviləsini imzaladı. Müqaviləyə əsasən "onu imzalayanlar öz xahişlərinə görə" çar Rusiyasının himayəsinə qəbul olunur, çar Rusiyası isə onların müstəqilliyinə toxunmayacağına, Qacarlar (İran) və Osmanlı (Türkiyə) dövlətlərinin təhlükəsindən onları müdafiə edəcəyinə vəd vermişdi. Lakin çar Rusiyası həmin müqaviləyə əməl etmədi və Azərbaycan xanlıqlarının ərazilərini zəbt etmək üçün hazırlığa başladı.

XIX əsrin əvvəllərində xanlıqlar arasında münasibətlər kəskin olduğundan yeni işğallara şərait yarandı. Ara müharibələri ölkənin sosial-iqtisadi vəziyyətini ağırlaşdırdı. Ölkədə siyasi birliyin olmaması xarici qüvvələrin işğalı üçün əlverişli şərait yaratdı. Hələ I Pyotrun yürüşü zamanı ruslar erməni amilinə xüsusi əhəmiyyət vermişdi. Çar Rusiyası ermənilərdən Azərbaycana qarşı casusluq fəaliyyətində istifadə edirdi. İşğalçılar üçün lazımi casusluq məlumatlarının toplanması üçün ermənilər "xüsusi" fəallıq göstərirdilər. Azərbaycan, Osmanlı (Türkiyə) və Gürcüstan torpaqlarında "böyük Ermənistan" dövləti yaratmaq xülyasında olan ermənilər çar Rusiyasının Qafqazdakı irticaçı (siyasi düşmən, mədəniyyət və tərəqqi düşməni) siyasətinə kömək etməklə məkrli məqsədlərinə çatmağa ümid edirdilər.

1801-ci il çar Rusiyası gürcü zadəgan nəslindən olan qəddar, Azərbaycan xalqının, ümumiyyətlə, Cənubi Qafqazın türk-müsəlman əhalisinin sevməyən general Sisianov, gürcü hakimlərini də ətrafında toplayaraq Gürcüstan ərazisindən istifadə etməklə Azərbaycanın şimal-qərb torpaqlarını ələ keçirməyə - işğalçılıq planlarını həyata keçirməyə başladı. 1803-cü ilin yazında general Qulyakovun başçılığı altında rus qoşunları Car-Balakəndə yerli əhalinin müqavimətini qırdıqdan sonra Balakəni yandırdılar. Aprelin 12-də Car-Balakəndən olan səlahiyyətli nümayəndə heyəti Car-Balakən camaatlığının çar Rusiyasının hakimiyyəti altına alınması barədə "Andlı öhdəlik" (carlılar çar Rusiyasının xəzinəsinə ipəklə xərac ödəməli, girovlar verməli, öz ərazisində rus qoşunlarını yerləşdirməli) sənədi imzaladı. Lakin əhalinin itaət şərtlərini yerinə yetirmədiyini bəhanə edən general Qulyakov 1804-cü ilin yanvarında yenidən Cara hücum etdi. Car işğal olunub yandırıldı. Rus qoşunları hücumlarını davam etdirdi və Zaqatala yaxınlığındakı dərədə carlıların güclü müqaviməti ilə üzləşdilər. Qanlı döyüşdə carlılar qələbə qazandılar və general Qulyakov öldürüldü. Carlılar yenidən hücuma keçmiş rus qoşunlarına müqavimətin mənasız olduğunu görərək mübarizəni dayandırdılar. Martın 29-da Car işğal olundu. Car-Balakənin işğalından sonra qonşu İlisu sultanlığı da Rusiya təbəəliyini qəbul etməli oldu.

Car-Balakən camaatlığı rus qoşunları tərəfindən işğal edildikdən sonra general Sisianov Azərbaycanın içərilərinə doğru sonrakı irəliləyişinin açarının Gəncə xanlığının ələ keçirilməsində gördü. 1804-cü il yanvarın 2-dən 3-nə keçən gecə rus qoşunları qalaya hücuma başladılar. Böyük rəşadətlə qeyri-bərabər döyüşə girən Cavad xan və onun oğlu Hüseynqulu ağa döyüşlərdə qəhrəmancasına həlak oldular. Qanlı döyüşlərdən sonra Gəncə qalası rus qoşunları tərəfindən tutuldu. Gəncə xanlığı ləğv olundu, şəhərin qədim adı dəyişdirildi və I Aleksandrın arvadının şərəfinə Yelizavetpol adlandırıldı. Gəncənin süqutundan sonra Gəncə xanının vassal asılılığında olan Samux hakimi də çar Rusiyasının təbəəliyini qəbul etməyə məcbur oldu. Beləliklə, Rusiya Azərbaycanın digər ərazilərini işğal etmək üçün imkan qazandı.

Gürcüstanın, Şimali Azərbaycanın bir hissəsinin Rusiya tərəfindən işğalı Qacarlar və Osmanlı dövlətlərinin, habelə Cənubi Qafqazda möhkəmlənməyə çalışan İngiltərə və Fransanın narahatlığına səbəb oldu. Fətəli şah Qacar əvvəlcə Gürcüstan və Gəncə ilə həmsərhəd olan bütün xanlıqların ərazilərini tabe etmək niyyətində idi. Lakin Qacarlar dövlətinin daxilində baş vermiş çaxnaşmalar və İngiltərənin vəd etdiyi köməyi göstərməməsi bu tədbirləri yarımçıq qoydu. Bununla belə, İngiltərə Qacarları Rusiya ilə müharibəyə qızışdırırdı.

1804-cü ilin mayında Qacarlar dövləti çar Rusiyasından öz qoşunlarını Cənubi Qafqazdan çıxarmasını tələb etdi. Tələb rədd olundu və 1804-cü ilin iyulunda 10 il davam edən çar Rusiyası-Qacarlar müharibəsi başlandı. Azərbaycanın bəzi feodal hakimləri, habelə feodalların da bir hissəsi öz hakimiyyətlərini itirməkdən qorxaraq, müharibəyə xilas yolu kimi baxırdılar. Qacarların qalib gələcəyi təqdirdə öz hakimiyyətlərini saxlayacaqlarını düşünərək, imkan daxilində ona kömək göstərirdilər. Əhali isə nə Qacarların, nə də çar Rusiyasının istilasına məruz qalmaq istəmir, öz xanlarına müraciət edərək, istilaçılara qarşı mübarizədə onlara hər cür kömək göstərəcəyini bildirirdi.

Qarabağ xanı İbrahimxəlil xan xanlığının müstəqilliyini qoruyub saxlamaq üçün çar Rusiyasına meyil edirdi. O, Qacarların qoşunlarının hücumunun qarşısını almaq üçün Sisianovdan hərbi kömək istədi. Qarabağ xanının çar Rusiyası ilə yaxınlaşmasından həyəcana düşmüş Qacarlar dövləti 500 nəfərlik dəstəni Qarabağa göndərdi. Lakin İbrahimxəlil xan dəstəni məğlub etdi. Xanın bu qələbəsindən sonra Sisianov Qarabağa mayor Lisaneviç başda olmaqla hərbi dəstə göndərdi. Eyni zamanda o, xanın çar Rusiyası təbəəliyinə keçməsini tələb etdi. İbrahimxəlil xan xanlığını qoruyub saxlamaq məqsədilə Sisianovla görüşməyə razılıq verdi. General Sisianov və İbrahimxəlil xan Gəncə yaxınlığındakı Kürəkçayın sahilində 1805-ci il mayın 14-də müqavilə imzaladılar. Müqaviləyə əsasən xan, onun varisləri və xanlığın bütün əhalisi çar Rusiyası təbəəliyinə qəbul olunur və onların üzərinə rus çarına sadiq qalmaq tələbi qoyulurdu. Xan rus qarnizonunu Şuşaya buraxmağı və onu zəruri şeylərlə təmin etməyi, hər il öz gəlirlərindən çar Rusiyası xəzinəsinə 8 min çervon xərac ayırmağı öhdəsinə götürdü. Bir həftə sonra İbrahimxəlil xanın vasitəçiliyi ilə Şəki xanlığı ilə də belə bir müqavilə bağlandı.

### İşğala aparan yol. Gülüstan və Türkmənçay müqavilələri

Hər dəfə xalqımızın faciələri, ərazilərinin işğalı səbəbləri ilə bağlı materialları, əski sənədləri araşdırarkən belə bir qənaət yaranır ki, tariximizin bütün qanlı səhifələri Azərbaycanın Rusiya ilə İran arasında bölüşdürülməsinə gətirib çıxarmış Gülüstan və Türkmənçay müqavilələrindən başlayır. Çar Rusiyasının Azərbaycana qarşı ekspansionist siyasəti rəsmən 1804-1813-cü illər çar Rusiyası-Qacarlar müharibəsi ilə başlayır. 1805-ci ildə Azərbaycanın Qarabağ və Şəki xanlıqları ilə çar Rusiyası arasında Kürəkçay müqaviləsi imzalanır. Müqaviləyə görə, bu xanlıqlar Rusiyaya ilhaq edilir və müstəqil xarici siyasət yürütməkdən məhrum olur. 1805-ci ilin axırlarına doğru Bakı və Şirvan xanlıqları da işğal edilir. Talış xanlığının işğalı ilə çar Rusiyasının Şimali Azərbaycanı tamamilə özünə ilhaq etməsi prosesi başa çatır. Bu mərhələ başa çatdıqdan sonra Qacarlar dövlətinin çar Rusiyası ilə müqavilə bağlaması reallaşır və sülh danışıqları başlayır. 1813-cü il oktyabrın 16-da Gülüstan kəndində, rus ordugahında məşhur "Gülüstan" müqaviləsi imzalanır. Bu müqavilə çar Rusiyasının Azərbaycanı işğal etdiyini rəsmən təsdiqləyir. Müqaviləyə əsasən, Gəncə, Qarabağ, Şəki, Şamaxı, Quba və Talış xanlıqlarının əraziləri, Şərqi Gürcüstan və Dağıstan da çar Rusiyasına ilhaq edilir. Xəzər dənizində donanma saxlamaq hüququ yalnız çar Rusiyasına verilir.

19 iyul 1826-cı ildə Qacarın qoşunlarının Rusiyanın nəzarətində olan Azərbaycan torpaqlarına daxil olması ilə Rusiya-İran müharibəsi yenidən başlayır. Döyüşlərdə Qacarın qoşunları ağır məğlubiyyətə düçar olur. 1826-cı ilin axırlarında Şəki və Lənkəran xanlıqları da ləğv olunur, 1827-ci ildə Rusiya Azərbaycanın ərazilərini işğal edə-edə Təbrizə girir və şəhər rusların əlinə keçir. 1828-ci ilin yanvar-fevral aylarında ruslar Urmiya və Ərdəbili tuturlar.

1828-ci il fevralın 10-da İngiltərənin səfiri Makdonaldın vasitəçiliyi ilə Təbriz yolunun üstündə yerləşən Türkmənçay kəndində I Nikolay ilə Fətəli şah arasında 15 maddədən ibarət sülh müqaviləsi imzalandı. Müqaviləyə əsasən, Araz çayı sərhəd olmaqla Azərbaycanın ərazisi Şimal və Cənub hissələrinə bölündü. Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı, Talış xanlığı, Şərqi Gürcüstan və Dağıstan (Azərbaycanın şimal torpaqları) Rusiyaya təslim edildi. Türkmənçay müqaviləsi XIX əsrin birinci otuz ilində baş vermiş rus-İran müharibələrinə son qoydu: xalqımızın və torpaqlarımızın iki yerə bölüşdürülməsi başa çatdırıldı. Azərbaycan xalqının iki hissəyə parçalanmasını və müxtəlif imperiyaların tərkibinə qatılmasını rəsmiləşdirən Türkmənçay müqaviləsi xalqımızın sonrakı taleyində də faciəli rol oynadı. İşğal nəticəsində Şimali Azərbaycan torpaqları Rusiya imperiyasının xammal mənbəyinə və satış bazarına çevrildi. Çar Rusiyası Şimali Azərbaycanın əraziləri arasında tarixən mövcud olan mədəni-iqtisadi əlaqələri qırmaq məqsədilə tezliklə burada müstəmləkə siyasətinin tələbləri üçün ərazi-inzibati dəyişikliyi də həyata keçirdi. 1828-ci il martın 21-də İrəvan və Naxçıvan xanlıqları ləğv edildi və həmin ərazilərdə "erməni vilayəti" adlı qondarma bölgə yaradıldı. Müqavilənin 15-ci maddəsinə əsasən, erməni əhalisinin İrandan Cənubi Qafqaza hərəkətinə icazə verildi. Nəhayət, ən başlıcası o idi ki, Şimali Azərbaycan Rusiyanın ucqar müstəmləkəsinə çevrildi. Cənubi Azərbaycan torpaqları isə İranın hakimiyyəti altında qaldı. Beləliklə, Azərbaycan Şimal və Cənub hissələrinin tarixi inkişafı müxtəlif yollarla getməyə başladı.

Rusiya Dərbəndi özünə birləşdirdi, Borçalını Gürcüstana, İrəvanı, Zəngəzuru, Göyçəni və Dərələyəzi ermənilərə verdi. Nəticədə Azərbaycan torpaqları hesabına sonralar Ermənistan dövləti yaradıldı. Ermənilər Türkmənçay müqaviləsinin şərtlərindən çox məmnun idilər. Tarixçilər erməniləri Türkmənçayın övladları adlandırırdılar, çünki Türkmənçay müqaviləsindən əvvəl ermənilər vətənsiz olublar. Erməni tarixçisi Anahid Terminasın qeyd etdiyi kimi, "ermənilər 1917-ci ilədək Qafqazın heç bir məntəqəsində çoxluq təşkil etməmişlər və onların müəyyən bir əraziləri də yox idi". O vaxtdan bəri Azərbaycan tarixinin hər səhifəsində ermənilərin tökdüyü qanın izi var. Erməni terrorçuları havadarlarına arxalanaraq bütün dövrlərdə Cənubi Qafqazda, o cümlədən Azərbaycanda qan tökmüş, torpaqlarımızı zəbt etmişlər. Adı "sülh müqaviləsi" olsa da, Türkmənçayın kəsdiyi yerdən hələ də Azərbaycanın qanı axır.

Hamımızın Azərbaycan adlı bir Vətəni var! Qoynunda dünyaya göz açdığımız, minbir nemətindən dadıb isti qucağında boya-başa çatdığımız bu əvəzolunmaz diyar azərbaycanlı adını qürur və iftixarla daşıyan hər kəs üçün müqəddəs və ülvidir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Vətən müharibəsində zəfər çalaraq erməni işğalçılarını kapitulyasiyaya məcbur etdi, düşməni qovaraq ərazi bütövlüyünə nail oldu. Bununla da Azərbaycan yeni inkişaf dövrünə qədəm qoydu.

Bu dövrdə dünyada mürəkkəb və ziddiyyətli proseslər davam etməkdədir! Hələ də dünyada ədalətsizliklər mövcuddur! Hələ də dünyada güclülər zəiflərin haqqını tapdalamaq istəyir! Odur ki, biz daima güclü olmalıyıq. Güclü olmağın əsas şərti isə döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində hərb işinin sirlərinə yiyələnməli, döyüş texnikasından və silahlardan bacarıqla istifadə etmək üçün biliklərini, bacarıqlarını və vərdişlərini daha da təkmilləşdirməli, mənəvi-psixoloji hazırlıqlarını artırmaqdır. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla Azərbaycan naminə, onun dünyada yeri, yüksək nüfuzu uğrunda daim mübarizə aparmış olur. Yalnız bu halda anamız Azərbaycanı qoruya, yüksəldə və hamımız üçün qürur mənbəyinə çevirə bilərik.

**İdeoloji İş və**
**Mənəvi-Psixoloji**
**Təminat İdarəsi**

# Kürdəmir Qarnizonunda kütləvi iməciliklər təşkil olunur





*Baharın gəlişi münasibətilə Hava Hücumundan Müdafiə hərbi hissələrində ərazilərin və yaşayış binalarının ətrafının təmizlənməsi, eləcə də yaşıllıq zolaqlarının salınması məqsədilə növbəti kütləvi iməcilik aksiyası təşkil edilib.*

Hava Hücumundan Müdafiə hərbi hissələrində ərazinin yaşıllaşdırılması və ətraf mühitin qorunması tədbirlərinə həmişə xüsusi diqqət yetirilib. Həyata keçirilən abadlıq və yaşıllaşdırma işlərinə hərbi hissənin şəxsi heyəti həvəslə qoşulur. Martın əvvəllərindən başlayaraq keçirilən kütləvi iməciliklər zamanı hərbi hissənin ərazisində, yol kənarlarında və digər ərazilərdə 200-dən çox ağac əkilib. Hərbi şəhərciklərin həyətlərində meyvə ağaclarına və yaşıllıq sahələrinə aqrotexniki qaydalar əsasında qulluq göstərilib, gül tingləri əkilib. Hərbi qulluqçular tərəfindən torpaq alaq otlarından təmizlənib, ağacların dibi yumşaldılıb, suvarma-becərmə işləri aparılıb.



Hərbi hissənin zabiti mayor Qorxmaz Mehdiyev bildirdi ki, hərbi qulluqçuların ekoloji tərbiyəsində xalqımızın adət və ənənələrinin, milli dəyərlərin qorunub saxlanılmasında baharın gəlişindən xəbər verən Novruz bayramının xüsusi əhəmiyyəti vardır. Yazın gəlməsi ilə hərbi hissədə yaşıllaşdırma işlərinin aparılması, iməcilik və ağacəkmə aksiyalarının təşkili ekoloji tarazlığın bərpasına və hərbi şəhərciyin ərazisinin gözəlləşdirilməsinə xidmət edir. Belə aksiyaların keçirilməsi ətraf mühitin qorunmasına, hərbi qulluqçuların sağlamlığının təmin edilməsinə, gənclərin zəhmətə alışdırılmasına, onlara təbiətə sevginin aşılanmasına müsbət təsir edir. Fəaliyyət planına uyğun olaraq hərbi şəhərcikdə ərazinin yaşıllaşdırılması, yeni ağacların əkilməsi, yaşıllıqlara qulluq məqsədilə keçirilən kütləvi iməcilik aksiyaları il ərzində davam etdiriləcəkdir.

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

*Sıra hazırlığı*

# Hərbi qulluqçunun "əlifba"sı



*Orduda belə bir deyim var: tabe olmağı bacarmalısan ki, tabeliyində olanları mükəmməl şəkildə idarə etməyi bacarasan. Söhbət açacağımız hərbi qulluqçu da məhz komandirlərin verdiyi əmr və tapşırıqları vaxtında və dəqiq icra edən kiçik komandirlərdəndir.*

Kiçik çavuş Şərif Şərifli mühəndis-istehkam bölməsində xidmət edir. İstehkamçı peşəsinə marağı əsgəri xidmətdə olarkən yaranıb. Şərifin doğulub boya-başa çatdığı Tərtər rayonunun Dəmirçilər kəndi İkinci Qarabağ müharibəsinə qədər düşmənlə təmas xəttində yerləşirdi. Şərif kiçik yaşlarından cəbhə bölgəsində atəş səsləri altında böyüyüb. Nankor ermənilərin xalqımıza qarşı illərdir apardığı düşmənçilik, torpaqlarımızın işğalçılıq siyasətindən əziyyət çəkənlərdən biri də Şərifin doğmaları, yaxınlarıdır. Bu gün Şərifin hərbçi olması heç də təsadüfi deyil, bir növ zərurətdən irəli gəlib. Doğma kəndini düşmən təhlükəsindən qorumaq istəyib. Vaxtilə ataları da düşmənə güclü müqavimət göstərib, onun irəliləməsinə imkan verməyib, əksinə, böyük itkilərə düçar edib.

Müddətli həqiqi hərbi xidmətdən qayıdandan sonra Şərif doğmalarının xeyir-duası ilə ordu sıralarına yazılıb. Hərbi xidmət keçmək üçün tələb olunan bütün normativləri yüksək səviyyədə yerinə yetirib. Mühəndis-istehkamçı kimi xidmətə başlayan Şərif qısa müddətdə komandirlərinin rəğbətini qazanıb. Onun hərbiyə olan marağı xidmətində daha böyük uğurlara yol açıb.

İkinci Qarabağ müharibəsi başlayanda kiçik çavuş Şərif Şərifli də istehkam manqası ilə döyüşə qatılıb. Murovdağ, Talış və Suqovuşan istiqamətində gedən döyüşlərdə onun rəhbərlik etdiyi manqa həm düşmənin irəliləməsinin qarşısını almaq üçün mühəndis maneələri qurub, həm də irəliləyən döyüşçülərimizə minalanmış sahələrdən yol açıb. Döyüşlərdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə kiçik çavuş Şərif Şərifli "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub. Bilik və bacarıqları ilə fərqlənən əsgərlərdən İlyas Zahirov, Ramiz Qasımov, Gündüz Şirinzadə, Ceyhun Şirinov və Ruslan Babayev nümunəvi döyüş yolu keçmiş manqa komandirinin tabeliyində xidmət keçdikləri üçün qürurludurlar. Onlar xidmət müddətində təyin olunduqları ixtisas üzrə hərbi biliklərə təcrübəli, öz işinə ürəkdən bağlı olan komandirlərinin həm nəzəri, həm də praktiki təlimlər keçdiyindən razıdırlar. Əsgərlər yaxşı anlayırlar ki, bütün bu uğurların əsasında nizam-intizam dayanır. Hərbçinin nizam-intizamı da sıradan başlanır.

Mühəndis-istehkam bölməsinin əsgərləri günün nizam qaydalarına uyğun olaraq sıra hazırlığı məşqləri keçirlər. Onların yiyələndikləri sıra vərdişləri həm şəxsi, həm də manqanın nizam-intizamının yüksək səviyyədə olmasından xəbər verir.

Əsgərin sıra hazırlığı onun döyüş hazırlığının tərkib hissəsidir. Elə bu səbəbdən də hərbi qulluqçunun "əlifba"sının sıra hazırlığı olduğunu qeyd etmək daha düzgün olar.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Norveç Ukraynaya daha 2 min ədəd tank əleyhinə silah verib



Norveç Ukraynaya daha 2 min ədəd tank əleyhinə silah verib.

Norveç hökumətinin saytında xəbər verilir ki, tank əleyhinə silahların yeni partiyasının ötürülməsi əvvəllər Ukraynaya göndərilmiş müdafiə vasitələri və 2 minə yaxın hərbi texnika ilə yanaşı həyata keçirilir.

Tank əleyhinə silahların yeni partiyası çərçivəsində Ukrayna tərəfinə M72 yüngül tank əleyhinə raketlər veriləcək.

Norveç hökumətinin saytında bildirilir ki, bu yolla Norveç bir sıra digər ölkələr kimi Ukrayna hakimiyyətinin tank əleyhinə silahlar şəklində əlavə yardım tələbinə cavab verib.

## Finlandiya NATO ilə Alyansa yeni üzvlərin qəbulu prosedurunu müzakirə edib



Finlandiya Prezidenti Sauli Niinistö NATO-nun baş katibi Yens Stoltenberqlə alyansa yeni üzvlərin qəbulu prosedurunu müzakirə edib.

Bu barədə Finlandiya Prezidenti rəsmi Facebook səhifəsində yazıb.

Niinistönin sözlərinə görə, Finlandiyanın təhlükəsizliyinin daha da gücləndirilməsinə ehtiyac var. Bunun üçün bütün imkanları və perspektivləri araşdırmaq lazımdır.

"Bu məqsədlə baş katib Stoltenberq ilə dünənki söhbətdə NATO-nun prinsipləri və yeni üzvlərin qəbulu ilə bağlı prosedurlar ətraflı müzakirə olunub",- deyə Finlandiya Prezidenti sosial şəbəkə hesabında yazıb.

Qeyd edək ki, üzvlük məsələsi ilə bağlı ictimai müzakirələrin və dəstəyin artmasına baxmayaraq, Finlandiya hökuməti hələ də Şimali Atlantika Alyansına qoşulmaq barədə rəsmi niyyətini ifadə etməyib.

## Konqoda BMT sülhməramlı missiyasının helikopteri qəzaya uğrayıb, ölənlər var



Konqo Demokratik Respublikasının şərqində BMT sülhməramlı missiyasının helikopteri qəzaya uğrayıb.

Birləşmiş Millətlər Təşkilatının (BMT) saytında xəbər verilir ki, qəza nəticəsində 6-sı Pakistan, biri Rusiya, digəri isə Serbiyadan olan 8 nəfər ölüb.

Qeyd edək ki, sülhməramlılar Konqo qüvvələri ilə M23 üsyançıları arasında son toqquşmaların baş verdiyi Tşanzu bölgəsində kəşfiyyat missiyasında olublar.

Hadisənin başvermə səbəbləri ilə bağlı araşdırma aparılır.

## Rusiyada hərbi düşərgəyə mərmi düşüb, xəsarət alanlar var



Rusiyada hərbi düşərgəyə mərmi düşüb.

TASS informasiya agentliyi xəbər verir ki, mərmi Rusiyanın Belqorod vilayətindəki müvəqqəti hərbi düşərgənin ərazisinə düşüb. Nəticədə dörd hərbçi yaralanıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Nümunəvi xidmət*

# “Vətənin keşiyində durmaqdan qürur duyuruq”

*Öz nümunəvi xidməti ilə yoldaşlarının və komandirlərinin rəğbətini qazanan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Eltun Əsgərovla "N" hərbi hissəsində tanış olduq. Hər bir igid Azərbaycan hərbçisi kimi o da Vətəninə sadiq bir döyüşçü olub, xidmətini düzgün təşkil edərək vəzifəsinin öhdəsindən uğurla gəlməyə çalışır.*

Goranboy rayonundan olan Eltun hələ əsgəri xidməti zamanı hərbçi olmaq qərarına gəlib. Bunun üçün də xidmətini başa vurduqdan sonra "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"na müraciət edib. Kursu müvəffəqiyyətlə bitirən Eltun artıq 2 ildən



çoxdur ki, ordu sıralarında Vətənimizin keşiyində dayanır. Eltun geyindiyi hərbi formanı sevərək daşıyır. O, Vətən müharibəsinin iştirakçısıdır. Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə igidlik və mərdlik nümunələri göstərən kiçik çavuş Eltun Əsgərov Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunub.

Düşmən üzərində qazanılan şanlı qələbədən söz açan Eltun bildirdi ki, bu qələbə Azərbaycan xalqının birliyinin qələbəsidir. "2020-ci ilin 27 sentyabrında azğınlaşmış düşmən bütün cəbhə boyu genişmiqyaslı təxribat həyata keçirməyə başladı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə ordumuz gecikmədən əks-hücum əməliyyatlarına başlayaraq düşmənə sarsıdıcı zərbələr endirdi. İlk gündən ordumuz döyüş meydanında üstünlük qazanaraq düşmən qüvvələrini darmadağın etdi. Güclü ordumuz qarşısında tab gətirə bilməyən işğalçılar qorxaraq döyüş meydanından qaçmaq məcburiyyətində qaldılar. İrəlilədikcə illərdir işğalda olan doğma torpaqlarımız bir-bir azad edilirdi. Sözsüz ki, bu azadlıq uğrunda şəhid olan və yaralanan qardaşlarımız da oldu. Ancaq heç kimdə ruh düşkünlüyü olmadı. Hər bir kəs düşməndən qisas almaq üçün daha da əzmlə döyüşlərə atılırdı. Xalqımızın orduya olan inamı və dəstəyi hər bir döyüşçü üçün stimul idi. Ordumuzda olan ruh yüksəkliyi, mənəvi-psixoloji vəziyyətin yüksək olması da qazanılan qələbənin vacib amillərindən biri oldu".

Hərbçi olmaqla üzərinə düşən vəzifənin müqəddəsliyini və məsuliyyətini yaxşı başa düşdüyünü deyən Eltun söhbətinə davam etdi:

- 44 günlük Vətən müharibəsində qazandığımız qələbə ilə arxayınlaşmamalıyıq. Düşmən hiyləgərdir. Bizlər hər zaman öz üzərimizdə çalışmalı, döyüş və fiziki hazırlığımızı, hərbi biliklərimizi daim artırmalıyıq. Bütün bunlar üçün bizlərə hər bir şərait yaradılıb. Bununla yanaşı, mən də öz növbəmdə gənc əsgərlərimizə hərbin sirlərini aşılayıram. Vətən müharibəsində qazanılan təcrübəni onlarla bölüşürəm. İzah edirəm ki, hər birimizin bir məqsədi var - torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaq və düşmən təxribatlarının qarşısını almaq. Bölməmizdə olan hər kəs Vətənə layiqli xidmət etmək üçün çalışır. Mən və hərbçi yoldaşlarım Vətən keşiyində durmaqdan qürur duyuruq.

**Leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

*Medallı igidlərimiz*

# Vətənə sipər olan oğullar

"Vətənə sipər olan oğullar" - misraları istər mövzusu, istərsə də aşıladığı ideya ilə həm də müasirliyi ilə səciyyəvidir.

Ermənistanın Azərbaycana qarşı elan etmədən başladığı müharibədə yüzlərlə şəmkirli gənc də iştirak etdi. Birinci Qarabağ müharibəsində də, Vətən müharibəsində də. Hamısı mərdliklə döyüşdü. Onlarla şəmkirli döyüşçü qəhrəmanlıqla şəhid oldu. Azərbaycanın hər yerində olduğu kimi Şəmkirdə də, Şəmkirin Çaparlı kəndində də şəhidliyə, şəhidlərə böyük ehtiram var. Hamı hər şəhidi özünə doğma bilib, doğma bilir, özünün əzizi hesab edib, əzizi hesab edir. Vətən müharibəsində qazanılan Zəfər ona görə bunca müqəddəsdi. Yeniyetmələr belə duyğularla böyüyürdülər, gəncləşirdilər, əsgərləşirdilər...

Eldar Valeh oğlu Mərdanov da belə duyğularla aylarını il eləyirdi, illəri ömürləşdirirdi. O da digər həmyaşıdları kimi hərbi xidmətdən tərxis edilmiş həmyerliləri ilə kəlmələşməyə maraqlı idi; belə kəlmələşmələr həm də öyrənmək deməkdir. Nəyi öyrənirdilər? - hərbi xidmət haqqında ilkin bilgiləri...

Şəhid Sərdar Məmmədov adına orta məktəbi bitirmişdi. Hərbi xidmətə çağırılacaqdı. Həmin gün haqqında düşünərdilər, xəyalən əsgərləşərdilər. Əsgərləşəcəkləri günün ərəfəsindəydilər...

2020-ci ilin yayında hərbi xidmətə çağırıldı, sevinirdi.

Xəyallarının gerçəkləşəcəyi ünvana yol aldılar...

Bir vaxtlar hərbi xidmətdən tərxis edilənlərlə söhbətləşəndə soruşduğu sualları hərbi xidmətdə komandirlərindən də soruşacaqdı. Bu sual bütün əsgərlərin sualı idi. Bu sual istək idi, mahiyyəti Vətənə sevgi olan istək: "Torpaqlarımızı işğaldan azad etmək üçün döyüşlər nə vaxt başlayacaq?". Bu sual Azərbaycan əsgərinin azərbaycançılığa sədaqətinin təzahürü idi. Azərbaycan əsgəri bu sualı işğalın sonlandırılacağı günün iştirakçısı olmaq niyyətiylə verirdi...

2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin döyüş əmri ilə əks-hücum əməliyyatı kimi başlayan döyüşlər Vətən müharibəsi kimi davam etdi. Əsgər Eldar Mərdanovun xidmət etdiyi hərbi hissə də döyüşlərə cəlb olunmuşdu.

Füzuli ətrafında döyüşlər gedirdi. Komandir Eldar Mərdanova və daha üç əsgərə düşmənin ciddi müqavimət göstərdiyi cinah istiqamətində intensiv atəş açmağı, imkan yaranan kimi düşmən səddinə yaxınlaşmağı tapşırmışdı. Onu da demişdi ki, eyni əmr sol cinahda döyüşən döyüşçülərə də verilib. Yəni bu əmr düşmənin həmin mövqedə döyüş aparan qüvvələrinin bölünməsinə, nəticə etibarilə müqavimət göstərdiyi səddin yarılması üçün imkan yaranmasına



hesablanıbmış...

Atışa başladılar. Əvvəl nisbətən müxtəlif səmtlərə atəş açırdılar. Sonra əsgərlərdən birinin təklifi ilə atəşi cəmlədilər, yəni eyni koordinatı atəşə tutdular. Bu, əmrin yerinə yetirilməsinə nisbətən əlverişli şərait yaratdı...

Qarşı tərəfdən atəş seyrələndə bir qədər də irəli çıxdılar...

Əsgərlərdən biri ağır yaralandı. Onu döyüş meydanından çıxartmağı Eldar öz üzərinə götürdü. On-on beş addım uzaqlaşmamışdılar ki, qənşərlərinə mərmi düşdü. Eldar yaralandı, çətinliklə də olsa yaralı əsgəri təhlükəsiz əraziyə çıxarda bildi...

Müalicə olundu. İkinci qrup əlil kimi tərxis edildi...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olundu.

Çaparlı kənd sakini Həsən Sultanov Eldar haqqında deyir: Uşaqlığından hamı onu vətənsevər kimi tanıyıb. Vətənsevərlər Vətənin müdafiəsində də qətiyyətli olur. Bütün çaparlılar Eldarın Vətən müharibəsində mərdliklə döyüşdüyünü, şücaətli, igid əsgər olduğunu bilir. Hamı Eldar kimi oğullarla qürur duyur...

Babası Məsim kişi nəvəsinin Vətən müharibəsi iştirakçısı olmasından qürurlanır: Oğul təkcə ailənin deyil, el-obanın, Vətənin oğludur. Vətəni sevə-sevə böyüyən oğullar onu işğaldan azad etdi. Onlar hərbi xidmətdən tərxis edildikdən sonra işğaldan azad edilmiş ərazilərimizdə quruculuq işlərində də iştirak edəcəklər. Onda da deyəcəyik ki, siz Vətəni sevdiyiniz qədərincə də Vətən sizi sevir!..

Çağırışçılar, yeniyetmələr digər qazilər kimi Eldar Mərdanovun da döyüş təəssüratlarını maraqla, sevgilərlə dinləyirlər. Belə söhbətlər də vətənpərvərlikdir, dinləyənlər üçün də danışanlar üçün də. Bu da Vətən müharibəsində qazanılan Zəfərin qüdrətidir. Onlar Vətəni seviblər, torpaqlarımızı işğaldan azad ediblər, Vətən də onları sevir.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Sərbəst güləş üzrə Azərbaycan millisi üçüncü dəfə Avropa çempionu olub




Macarıstanın paytaxtı Budapeştdə keçirilən Avropa çempionatında sərbəst güləş üzrə mübarizəyə yekun vurulub. Millimiz qitə birinciliyində tarixi uğura imza atıb.

Baş məşqçi Namiq Abdullayev, böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi yarışa tam heyətlə yollanan yığmamızın 10 üzvündən 7-si fəxri kürsüyə qalxıb. Maqomedxan Maqomedov (97 kq) qızıl, Əliabbas Rzazadə (57 kq), Hacı Əliyev (65 kq), Əşrəf Aşırov (79 kq), Abubakr Abakarov (86 kq) gümüş, Turan Bayramov (74 kq) və Osman Nurmaqomedov (92 kq) isə bürünc medal qazanıblar.

Yekunda 159 xal toplayan millimiz komanda hesabında Avropa çempionu olub. Azərbaycan ikinci pillədə qərarlaşan Türkiyəni 18 xal qabaqlayıb. Üçüncü yeri tutan Gürcüstan isə 133 xal toplayıb. Beləliklə, sərbəst güləş üzrə yığmamız 3-cü dəfə Avropanın ən güclü komandası ünvanına sahib olub. Millimiz 2009-cu ildə Litvanın paytaxtı Vilnüsdə və 2017-ci ildə Serbiyanın Novi Sad şəhərində təşkil olunan analoji yarışlarda da qitə çempionu olub.

Qeyd edək ki, bu, sərbəst güləşçilərin son 1 ayda ikinci uğurudur. Martın 7-13-də Bolqarıstanın Plovdiv şəhərində baş tutan U-23 Avropa çempionatında da müvafiq millimiz komanda hesabında birinci yeri tutmuşdu.

## FIDE Qran-Pri seriyasının üçüncü mərhələsi: Şəhriyar Məmmədyarov növbəti heç-heçəyə imza atıb



Almaniyanın paytaxtı Berlin şəhərində şahmat üzrə FIDE Qran-Pri seriyasının üçüncü mərhələsinin oyunları davam edir.

Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov Hikaru Nakamura (ABŞ) ilə ikinci görüşündə də heç-heçə edib. Xallar bərabər olduğundan qalibi müəyyənləşdirmək üçün tay-breyk oynanılacaq.

Yarımfinal mərhələsinin digər cavab oyununda Uesli So (ABŞ) ilk qarşılaşmada məğlub etdiyi iranlı Amin Tabatabayiyə uduzduğu üçün hesab bərabərləşib və şahmatçılar qalibi tay-breykdə müəyyənləşdirəcəklər. Qran-Prinin nəticələrinə görə, yarış iştirakçıları reytinq xalları qazanacaqlar.

Turnirə aprelin 4-də yekun vurulacaq.

## Azərbaycan xizəkçisi açıq Böyük Britaniya çempionatında birinci olub




Martın 29-da Azərbaycanı dağ xizəyi üzrə yarışlarda təmsil edən İlya Kostov açıq Böyük Britaniya çempionatında uğurla mübarizə aparıb.

Fransanın Tiqnes Xizək Kurortunda baş tutan yarışda atletimiz 18 yaş kateqoriyasında olan idmançılar arasında dağ xizəyi idmanının dağdan eniş növündə birinci yerə sahib olub. Mübarizədə ikinci yerə fransalı atlet Dylan Hacquard, üçüncü yerə isə macarıstanlı Attila Banyal sahib olublar.

Ümumi yarışın nəticələrinə görə isə təmsilçimiz İlya Kostov üçüncü yerdə qərarlaşıb. Çempionata Fransa, Macarıstan, İtaliya, ABŞ, Avstraliya və Kanadadan 30 idmançı qatılaraq birincilik uğrunda mübarizə aparıblar.

Qeyd edək ki, 17 yaşlı idmançı Azərbaycanı dağ xizəyi üzrə yarışlarda 2021-ci ildən təmsil edir.

**AZƏRTAC-ın materialları əsasında**

Xanlarov Osman Nəsib oğluna 1999-cu ildə verilmiş MV № 000699 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 395
Nüsxə 4673